Xalq qəzeti 2021.- 2 fevral.- S.9.

**Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi və ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Son 17 ildə Prezident İlham Əliyev tərəfindən davamlı islahatlar kontekstində xüsusi nəzarətə götürülən istiqamət məhz ölkənin iqlim dəyişikliyi çərçivəsində yeni çağırışlara hazır olmasıdır. Bu fikirləri Milli Məclisin deputatı Məzahir Əfəndiyev bildirib.**

# Qarabağın potensialı Azərbaycanın davamlı inkişafı üçün çox əhəmiyyətlidir

Deputat qeyd edib ki, ekoloji təhlükəsizliyin təmin edilməsi və ekoloji strategiyanın koordinasiyası milli, beynəlxalq və regional səviyyələrdə təbii ehtiyatların mühafizəsi ölkənin iqtisadi və insan resurslarının istifadəsində davamlılığın təminatına yönəlmişdir. Son 30 ildə dünyada ekoloji tarazlığın qorunması, eyni zamanda, Azərbaycanın beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlığı istiqamətində ciddi nailiyyət əldə olunmuşdur. Lakin Birinci Qarabağ müharibəsindən sonra Ermənistanın ekoloji terroru nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində ölkəmizin təbiətinə, bioloji müxtəlifliyinə, su ehtiyatlarına, fauna və florasına da ciddi ziyan vurulmuş, qiymətli sərvətlər dağıdılaraq Ermənistana daşınmış, min hektarlarla meşə sahələri qəsdən yandırılaraq məhv edilmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Ermənistan faktiki olaraq Azərbaycana qarşı ekoloji terror törədib və o torpaqlar yenidən həyata qaytarılmalıdır”. Ölkəmizin ən gözəl regionlarından sayılan Qarabağın perspektivləri Azərbaycanın davamlı inkişafı üçün çox vacib və əhəmiyyətlidir.

M. Əfəndiyev istər ekoloji təhlükəsizliyin, istərsə də ekoloji siyasətin ölkənin iqtisadi, sosial və insan resurslarının dayanıqlı inkişafına olan təsirinin nəzərə alınmasını vurğulayaraq deyib ki, inkişaf strategiyalarının təbiət və vətəndaşlar arasında olan əlaqəsi gücləndirilməlidir: “Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkədə ekoloji siyasətə nəfəs verən “Hərəmiz bir ağac əkək!” çağırışı qısa müddətdə bütün Azərbaycan ərazisində yüz minlərlə ağacın əkilməsi, əhalinin bu təşəbbüsdə həvəslə iştirakı ekoloji vəziyyətin yaxşılaşdırılmasına şərait yaratmışdır. Bildiyimiz kimi, “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəliy” in uğurlu icrası üçün sadəcə 10 il qalmışdır. Qlobal gündəliyin məqsəd və hədəflərə nail olması üçün bu il Birləşmiş Millətlər Təşkilatı tərəfindən “Ekosistemin bərpası üzrə onillik” elan olunmuşdur. Ekosistemin bərpası və qorunması həm insan hüquqlarının təmin olunmasının, həm də yaxşı idarəçiliyin əsas parametrlərindəndir. Qısa müddət ərzində bu hədəfə nail olmaq və Qarabağ bölgəsinin zəngin, füsunkar təbiətinin yenidən bərpası yalnız ənənəvi olmayan



yeni metodların istifadəsi və cəmiyyətin bütün təbəqələrinin iştirakı ilə mükəmməl idarəetmənin tətbiqi nəticəsində mümkündür”.

Qarabağın dirçəlişinə dair hökumətin müxtəlif istiqamətli konsepsiyalarının hazırlanması zamanı ekoloji sabitliyin təmin olunması ilə yanaşı, “Yaşıl iqtisadiyyat və insan kapitalı” ilə vəhdətin təşkili diqqət mərkəzində olmalıdır. Belə ki, vətəndaş, iqtisadiyyat və təbiət amilləri qərarvermə mərhələsinin əsas dayaq nöqtələri olmalıdır.

Eyni zamanda, dövlət və özəl sektorun birgə əməkdaşlığı ilə yanaşı, sosialyönümlü gənc sahibkarların da rolu nəzərə alınmalı və kiçik bir investisiya payının sosial sahibkarlığa istiqamətləndirilməsi yerli sosial inkişafın daha da güclənməsinə təkan verə bilər.

Sosial sahibkarlıq elm, təhsil, səhiyyə, gender bərabərliyi, enerji, keyfiyyətli ərzaqa çıxışın təmin olunmasını, iqlim dəyişməsi, içməli suya olan tələbatın ödənilməsi kimi sosial məsələlərin həllinə innovativ, praktiki və biznes düşüncəsi ilə dayanıqlı həll yolları təqdim edir. Sosial sahibkarlığın inkişaf strategiyalarının icrasında rolunun gücləndirilməsi iqtisadi gücü artırır və investisiyanı uzunmüddətli təsir gücünə malik layihələrə çevirir.

İqlim dəyişikliyi kontekstində Azərbaycanın da qoşulduğu “Paris iqlim sazişi”ndə nəzərdə tutulan yeni çağırışlara əsasən füsunkar təbiətə malik Qarabağ ərazilərində də beynəlxalq təşkilatlarla əməkdaşlıq əsas və vacib istiqamətlərdən ola bilər.

***Təqdim etdi:***
***Anar ƏLİYEV, “Xalq qəzeti”***